050114 – “Riyaziyyat müəllimliyi” ixtisasının qısa təsviri

Riyaziyyat müəllimi ixtisasında təhsil almağın üstün cəhəti odur ki, riyaziyyat sahəsində dərin biliklərinə yiyələnir, riyazi və məntiqi təfəkkür qabiliyyətini inkişaf etdirirsən. Riyaziyyat müəllimliyi ixtisası üzrə təhsil proqramını mənimsəyən məzunlar İxtisas bilklərindən əlavə, həm də aşağıdakı bir sıra ümumədəni və peşə kompetensiyalarına (səriştələr) yiyələnirlər:

- Kollektivdə öz həmkarları ilə birlikdə işləməyi, optimal qərarlar qəbul etməyi bacarmaq, idarəetmə metodlarına yiyələnmək;
- Yeni ideyalar irəli sürmək və əsaslandırmaq;
- Mədəniyyətlərarası dialoqa hazır olmaq;
- Problemli şəraitdə təşəbbüskarlıq göstərmək;
- Tənqid və özünütənqidə dözümlülük göstərmək;
- İKT-dən istifadə etməyi bacarmaq;
- Peşə fəaliyyəti sahəsinə aid olan fənlərin əsas problemlərini bilmək və konkret şəraitdə tətbiq etməyi bacarmaq;
- Fikrini düzgün və yığcam ifadə etmək;
- Şagirdlərin müəyyən qruplarına rəhbərlik etməyi bacarmaq.

Bu ixtisas üzrə bakalvr dərəcəsini almaqla orta ümumtəhsil məktəblərində, müxtəlif tədris mərkəzlərində və hazırlıq kurslarında, liseylərdə, orta ixtisas təhsili müəssisələrində (kolleclər), magistr dərəcəsini almaqla isə həm də universitetlərdə Riyaziyyat müəllimi kimi işləyə bilrsiniz. İixtisas üzrə təhsil proqramının normativ mənimsəmə müddəti 4 ildir.